# Müasir təhsil proqramlarının hazırlanmasında hansı yeni meyarlar tətbiq edilə bilər...

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanmasında hansı yeniliklərin tətbiqinə zərurət var?

**Müasir dövlətlərdə bütün sahələri əhatə edən inkişaf proqramlarının tətbiqi ölkənin güclənməsi baxımından ən vacib faktorlardan biri hesab edilir. Xüsusilə də elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarının hazırlanması və təkmilləşdirilməsi çox vacibdir.**

Azərbaycanda bu istiqamətdə mühüm işlər görülsə də, mütəxəssislər hesab edirlər ki, ölkəni dünyanın yenidən elm-mədəniyyət beşiyinə çevirə bilən elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarına ciddi ehtiyac var.

2009-cu ildə "Təhsil haqqında" qanun və 2011-ci ildə orta ümumtəhsil məktəblərinin nizamnaməsinin qəbul edilməsi yeni tədris resurslarının yaradılmasını zəruri edirdi. Çünki biz 2008-ci ildə kurikulum standartlarına uyğun tədris prosesini təşkil etməyə başlamışıq. Məlum olub ki, bizim bu formatda təhsili təşkil etməklə bağlı ciddi problemlərimiz var. Əsas problem isə bundan ibarətdir ki, sözügedən tədrisi həyata keçirə biləcək müəllim kontingentimizin olmaması, məktəbdaxili qiymətləndirmə normativinin olmaması yeni standartların və proqramların işlənməsini qaçılmaz edir. Biz kurikulum tədris sisteminə keçsək də, etiraf edək ki, kurikulum bizdə müasir tələblərə cabvab vermir. Ona görə də mütləq şəkildə kurikulumun yeni standart və tələblərini dəyişməliyik. Təhsil proqramları 2013-cü ildə Prezident tərəfindən qəbul edilən təhsilin inkişafı üzrə Dövlət Strategiyasına uyğun olmalıdır. Bu gün müasir dövrün tələbləri təhsilin inkişafı üzrə Dövlət Strategiyasında qeyd olunub.

### Azərbaycanda yeni təhsil standartlarına uyğun tədris proqramlarının qurulmasına böyük ehtiyac var

Təhsil eksperti Kamran Əsədov hesab edir ki, kurikulum sistemi köhnəlib, yeni təhsil standartları üzərində işləmək lazımdır:

"Xüsusən də orta təhsil məktəblərinin, maddi-texniki bazanın idarə edilməsində, ali təhsil müəssisələrində semestr qiymətləndirilməsində normativ hüquqi aktlarda ciddi problemlər var. Bəzi vəzifələrin tutulması, vəzifə müddəti ilə bağlı problemlər var. Zaman-zaman kurikulum standartları ilə müasir standartlara uyğun tədris qurmaq istəyəndə başa düşdük ki, bizim hüquqi sənədlərimizdə boşluqlar bizə keyfiyyətli təhsili təşkil etməyə mane olur. Ona görə də normativ hüquqi aktlarda birmənalı şəkildə dəyişiklik yaranmalı idi. Biz tədris proqramları, xüsusən tədrisin həyata keçirilməsi ilə bağlı ciddi boşluqların şahidi oluruq. Hesab edirəm ki, Azərbaycanda yeni təhsil standartlarına uyğun tədris proqramlarının qurulmasına böyük ehtiyac var".



### Təhsilin davamlı inkişafını təmin etmək üçün…

Digər yəhsil eksperti Elçin Əfəndi isə hesab edir ki, yəhsil proqramlarının hazırlanmasında müasir dünya standartlarının əsas götürülməsi vacibdir:

"Azərbaycan Respublikası Təhsil İnstitutu müvafiq təhsil proqramlarının hazırlanmasında əsas rol oynayır. Ümumi təhsil proqramlarının hazırlanması və icrasında müəyyən çatışmazlıqlar olsa da bunun aradan qaldırması üçün Təhsil İnstitutu müntəzəm olaraq çalışır. Müvafiq dərsliklərin, proqramların hazırlanması və bu istiqamətdə görülən işlər zamanı qabaqcıl ölkələrin təhsil proqramları əsas götürülərək müəyyən tələblər həyata keçilir. Təhsil proqramları tam müasir standartlara cavab vermir. Azərbaycanda əsas təhsil proqramları əsasən kurikulum təhsil sisteminə əsaslanır. Yaxşı olardı ki, təhsilin davamlı inkişafını təmin etmək üçün Sinqapur, Fillandiya müasir Avropa təhsil proqramlarını əsas götürək. Bu zaman proqramların hazırlanması və icrasında daha səmərəli nəticələr əldə etmiş olarıq".

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da qeyd edildiyi kimi Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Bu vəzifələrin həyata keçirilməsində, strateji hədəflərə çatmaqda təhsil proqramlarının rolu və əhəmiyyəti danılmazdır.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**